www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-03 (1786) 15 fevral 2024-cü il



## Azərbaycan xalqının öz liderinə sarsılmaz inamının göstəricisi

Prezident İlham Əliyevin böyük qələbə qazandığı növbədənkənar seçkilər ölkəmizdə yeni dövrün başlanğıcıdır

səh. 2

### ATU-nun rektoru Erasmus layihəsinin iştirakçısı olan tələbələri qəbul edib

səh. 2

### Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası yaradılıb

səh. 5

### Tədris Cərrahiyyə Klinikasında göz əməliyyatının yeni metodu tətbiq edilir

səh. 6



### Universitetimizin ötən il əldə etdiyi elmi nailiyyətlər müzakirə olunub

Rektor, professor Gəray Gəraybəyli: Elmi işlərə münasibət dəyişib, formal dissertasiyalar geri qaytarılır

səh. 3

### “Bilmədiklərimizi öyrəndik, bildiklərimizi paylaşdıq”

*ATU-nun pedaqoji heyəti üçün peşəkar təlimlər davam edir*

səh. 6

### Şəfalı bitkilər öldürə də bilər

*Dərman bitki xammalının düzgün tədarükü, saxlanılması və istifadə müddəti müalicənin nəticəsinə birbaşa təsir göstərir*

səh. 7



### Gənclər Günü münasibəti ilə tədbir keçirilib

səh. 4

# Azərbaycan xalqının öz liderinə sarsılmaz inamının göstəricisi

## Prezident İlham Əliyevin böyük qələbə qazandığı növbədənkənar seçkilər ölkəmizdə yeni dövrün başlanğıcıdır



**2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində, 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.**

Fevralın 11-də Mərkəzi Seçki Komissiyasında Məzahir Pənahovun sədrliyi ilə seçkilərin yekunları ilə bağlı iclas keçirilib. Qeyd olunub ki, seçkilər 125 seçki dairəsi üzrə keçirilib və vətəndaşlara səs vermələri üçün bütün şərait yaradılıb.

Yekun nəticələr belədir:

Lider namizəd Əliyev İlham Heydər oğlu - 4 milyon 567 min 458 səs (92,12 faiz)

Əliyev Fuad Ağası oğlu - 26 min 517 səs (0,54 faiz)

Həsənquliyev Qüdrət Müzəffər oğlu - 85 min 411 səs (1,72 faiz)

Musayev Elşad Nəbi oğlu - 32 min 885 səs (0,66 faiz)

Mustafa Fazil Qəzənfər oğlu - 98 min 421 səs (1,99 faiz)

Nurullayev Razi Qulaməli oğlu - 39 min 643 (0,80 faiz)

Oruc Zahid Məhərrəm oğlu – 107 min 632 səs (2,17 faiz).

Növbədənkənar prezident seçkilərində seçici fəallığı 76,43 faiz olub.

Namizədi qeydə alınmış siyasi partiyanın səlahiyyətli nümayəndəsi, beynəlxalq müşahidə missiyasının təmsilçisi, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media mənsublarının iştirak etdikləri iclasda əvvəlcə seçkilərin hazırlanıb keçirilməsi istiqamətində atılan addımlar və reallaşdırılan layihələr barədə ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlarımız da daxil olmaqla, respublikanın hər bir bölgəsində prezident seçkiləri yüksək səviyyədə təşkil olunub, azad, ədalətli və şəffaf keçirilməklə ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyətli tarixi hadisəyə çevrilib.

Daha sonra prezident seçkilərinin nəticələri haqqında MSK-nın Protokolu tərtib edilib və bütün Komissiya üzvləri tərəfindən imzalanıb təsdiqlənməklə seçkilərə yekun vurulub. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, MSK-nın Protokolunun müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiqlənməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi, həmçinin dərc olunması qərara alınıb.

Fevralın 13-də Fərhad Abdullayevin sədrliyi ilə keçirilmiş Konstitusiya Məhkəməsi Plenumunun iclasında prezident seçkilərinin nəticələrinə dair MSK-dan daxil olmuş materiallar üzrə xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsi hakimlərin məruzələrini, maraqlı subyektin qanuni nümayəndələrinin çıxışlarını, ekspertlərin rəylərini dinləyib, işin materiallarına baxaraq, 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarının təsdiq və rəsmən elan olunmasına dair qərar qəbul edib.

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.

# "Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu ilə qürur duyuruq"

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 7-də keçirilən seçkilərdə inamlı qələbə qazanması münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**



Məktubunda dövlətimizin başçısına türk milləti və şəxsən öz adından səmimi təbriklərini çatdıran Rəcəb Tayyib Ərdoğan qeyd edib: "Zati-alinizin uğurlu liderliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf, bütün torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub.

Türkiyə ilə Azərbaycan arasında "Sevincdə və kədərdə birlik" ilə "Bir millət, iki dövlət" şüarları zəminində formalaşan qardaşlıq və həmrəylik əlaqələri Şuşa Bəyannaməsi ilə münasibətlərimizin güclü əsasını təşkil etməyə davam edəcəkdir.

Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm.

Bu baxımdan müzəffər lider kimi seçkiləri uğurla başa vurmağınızdan sonra böyük əmək sərf etdiyiniz Ermənistanla müzakirələrin də sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyinə ümid edirəm".

Türkiyə Prezidenti seçkilərdə zəfərin həm qardaş Azərbaycan xalqı, həm də bölgə üçün xeyirli olmasını diləyib, dövlətimizin başçısına ali vəzifəsində müvəffəqiyyətlər arzulayıb.

Qeyd edək ki, həmin gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edib, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

# Müttəfiqlik və tərəfdaşlıq əlaqələrimiz bundan sonra da inkişaf edəcək

**Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Vladimir Putin İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını ifadə edib.

Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

# ATU-nun rektoru, professor Gəray Gəraybəyli gəncləri təbrik edib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycan Gəncləri Günü münasibəti ilə tələbələri təbrik edib. Təbrikdə deyilir:**

Əziz tələbələrimiz!

Bu gün sizin bayramınızdır. Bu əlamətdar tarix gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində tədbirlərin həyata keçirilməsinə xüsusi önəm verən Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ümummilli Liderin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, Azərbaycan Gəncləri Günü təsis edilib.

Ulu Öndər Heydər Əliyev gənclərə qayğı siyasətini daim dövlətin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirib, gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayıb. Bu sənədlər sırasında gənclərin sosial problemlərinin həlli, təhsil məsələləri, gənclərin ictimai fəaliyyətinin gücləndirilməsi və digər məsələlər yer alıb. O, gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə də xüsusi önəm verirdi.

Ulu Öndərin gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Məhz bu siyasətin nəticəsi, dövlət başçısının gənclərə etimadı artıq öz təsdiqini tapıb. Belə ki, 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmağımızda məhz vətənpərvər gənclərin böyük rolu oldu. Hazırda ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələdə davam edir.

Bu il biz Gənclər Gününü digər əlamətdar bir tarix – 7 fevral prezident seçkiləri ərəfəsində qeyd edirik. Düşünürəm ki, Azərbaycanın müstəqillik tarixində öz sözünü deyəcək bu seçkilərdə gənclər ən fəal iştirakçılar olacaq, dövlətimizin müstəqilliyinə və parlaq gələcəyinə səs verəcəklər.

Hər birinizi Gənclər Günü ilə əlaqədar təbrik edir, sizə möhkəm cansağlığı, gələcək karyeranızda uğurlar və nailiyyətlər arzulayıram!

# Rektor Erasmus layihəsinin iştirakçısı olan tələbələri qəbul edib



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Erasmus layihəsi çərçivəsində xarici ölkələrdə praktika keçən və yeni təcrübə proqramına hazırlaşan tələbələrlə görüşüb.**

Görüşdə iştirak edən II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Səid Vahidi ötən yaz və payız semestrləri ərzində Litva Sağlamlıq Elmləri Universitetinin Tibb fakültəsində praktikada olduğunu bildirib. O, Kaunas şəhərində yerləşən tibb müəssisəsində əldə etdiyi təcrübə haqqında məlumat verib və sonda rektora yaradılan şərait üçün təşəkkür edib.

ATU-nun Əczaçılıq fakültəsinin III kurs tələbəsi Türkanə Əliyeva isə 2023-2024-cü tədris ilinin yaz semestrini Anadolu Universitetinin Əczaçılıq fakültəsində keçirəcəyini qeyd edib. Yaxın günlərdə proqramda iştirak məqsədilə yola düşəcəyini bildirən tələbəmiz bu imkana görə universitet rəhbərliyinə minnətdarlığı bildirib.

Bu gün ATU-nun dünyanın bir çox tanınmış universitetləri ilə ortaq layihələr reallaşdırdığını deyən professor G.Gəraybəyli, bu əlaqələrin tələbələrin təcrübəsinin artırılması və inkişafına xidmət etdiyini diqqətə çatdırıb. ATU-nun rektoru tələbələrə uğurlar arzulayaraq, onları fəal olmağa, yaradılan hər bir imkandan yararlanmağa çağırıb.

# Qazaxıstanlı magistrantlarla görüş keçirilib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ATU-da praktikada olan qazaxıstanlı magistrantlarla görüşüb.**

Marat Ospanov adına Qərbi Qazaxıstan Tibb Universitetinin 8 magistrantı ilə keçirilən görüşdə rektor universitetlər arasında mövcud dostluq və əməkdaşlıq əlaqələrinin səviyyəsini yüksək qiymətləndirdiyini bildirib. O digər ölkələrin universitetləri ilə icra olunan ortaq təşəbbüs və layihələr, ATU-nun əcnəbi tələbələrə təqdim etdiyi imkanlar haqqında məlumat verib.

Magistrantlar onlar üçün yaradılan şəraitə görə ATU rəhbərliyinə təşəkkür edərək, burada keçdikləri təcrübə ilə bağlı təəssüratlarını açıqlayıblar. Qonaqlar ATU-da praktikada olduqları 14 gün ərzində Patoloji anatomiya, Sitologiya, embriologiya və histologiya, Epidemiologiya, Qidalanma, Uşaq xəstəlikləri, Ailə təbabəti, Əczaçılıq və digər kafedralarda olduqlarını, universitetin klinikalarında işlədiklərini bildiriblər.



Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova, Beynəlxalq əlaqələr şöbəsinin koordinatorları iştirak ediblər.

**Fevralın 8-də Böyük Elmi Şuranın növbəti iclası keçirilib. İclası açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilk öncə bildirib ki, fevralın 7-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri xalqın böyük etimadını qazanan Ali Baş Komandan İlham Əliyevin qəti və inamlı qələbəsi ilə başa çatıb.**

# Universitetimizin ötən il əldə etdiyi elmi nailiyyətlər müzakirə olunub

## Rektor, professor Gəray Gəraybəyli: Elmi işlərə münasibət dəyişib, formal dissertasiyalar geri qaytarılır




Cənab İlham Əliyevi universitetimizin böyük kollektivi adından təbrik edən rektor, qalib Azərbaycanı daha da gücləndirməsi yolunda göstərdiyi bütün fəaliyyətlərində Prezidentimizə yeni-yeni nailiyyətlər arzulayıb.

Bundan sonra gündəlikdə duran məsələlər diqqətə çatdırılıb və "Azərbaycan Tibb Universitetində 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işləri və qarşıda duran vəzifələr" barədə universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərovun hesabatı dinlənilib. Professor qeyd edib ki, ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biri dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılması, elmi potensialın inkişafı, eləcə də yüksəkixtisaslı kadrların hazırlanmasıdır: "ATU-nun 2023-2030-cu illər üçün inkişaf strategiyasından irəli gələn elmi strategiyasında əsas prioritetlərimizdən biri "Tədqiqat universiteti" statusunun alınmasıdır. Bunun üçün innovasiya mədəniyyətinin təmin edilməsi, yenilikçi elmi tədqiqatların köməyi ilə biliklərin artırılması, habelə müstəsna bacarıqlara malik müəllimlərin, tədqiqatçıların, təhsilalanların cəlb edilməsi və əldə saxlanması yolu ilə universitetimizin tanınmış tədqiqat mərkəzinə çevrilməsi gözlənilir".

Sözünə davam edən R.Bəylərov universitetin keçdiyi tarixi inkişaf yoluna və onun struktur bölmələrinə qısa nəzər salaraq kadr potensialına da toxunub: "2024-cü il yanvar ayının əvvəlinə olan məlumata əsasən, ATU-da çalışan 1234 nəfərin 1089-u professor-müəllim heyətidir. Onlardan 3-ü Rusiya EA-nın, 2-si AMEA-nın həqiqi, 4-ü müxbir üzvü, 21-i əməkdar elm xadimi, 37-i əməkdar həkim, 34-ü əməkdar müəllim, 1-i əməkdar bədən tərbiyəsi və idman xadimi, 1-i fəxri bədən tərbiyəsi və idman işçisi, 168-i elmlər doktoru, 755-i fəlsəfə doktoru, 132-i professor, 370-i isə dosentdir".

2023-cü ildə ATU-da "Əhalinin sağlamlığının qorunması" haqqında Azərbaycan Respublikası Qanununa əsasən, aparılan elmi-tədqiqat işləri haqqında məlumat verən R.Bəylərov təbabət və əczaçılıq sahəsində 3 istiqamət, 9 problem üzrə 57 elmi-tədqiqat işinin yerinə yetirildiyini və 4 tamamlanmış mövzuların olduğunu diqqətə çatdırıb. Hesabat dövründə kollektiv tərəfindən 470 elmi işin nəşr olunduğunu deyən məruzəçi 7 dərslik, 2 metodik tövsiyə, 183 məqalənin (56-ı xaricdə, 127-i daxildə), 278 tezisin (73-ü xaricdə, 205-i daxildə) çap olunduğunu, yüksək impakt faktorlu jurnallarda isə 12 məqalənin işıq üzü gördüyünü söyləyib. Bundan əlavə, mövzu üzrə 2 metodik vəsait və 14 elmi məqalə (8-i respublikada, 6-ı xaricdə), həmçinin 48 konfrans materialı (30-u respublikada, 18-i xaricdə) çap edilib.

Universitetimizin əldə etdiyi uğurları bölüşən prorektor məlumat verib ki, son illər universitetin davamlı inkişafına nail olunması, beynəlxalq elmi bazalara çıxışı və alimlərin elmi məqalələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmasına dəstək göstərilməsi istiqamətində mühüm addımlar atılır: "2023-cü ildə elmi-tədqiqat işlərinin nəticələri 9 monoqrafiya və kitabda, 27 dərslikdə, 28 dərs vəsaitində, 5 kitabça və sorğu ədəbiyyatında, 12 elmi əsərlər məcmuəsində, 677 elmi iş xarici, 1591-i respublika nəşrlərində, 12 metodik tövsiyədə, 2 Azərbaycan və 8 Avrasiya patentində öz



əksini tapıb. EduRank.org reytinq cədvəlinə əsasən, əməkdaşlarımız tərəfindən nüfuzlu jurnallarda çap olunmuş elmi işlərin sayı 1,297 təşkil edir və bu göstərici 2022-ci ilin göstəricisindən bir qədər yüksəkdir. İstinad indeksi 2023-cü ildə 4,361 təşkil edərək artıb".

Universitetin fərdi elmi nailiyyətlərinə də diqqət çəkən məruzəçi vurğulayıb ki, Patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyev Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən "Türk Dünyasında İlin Alimi" beynəlxalq mükafatına, habelə dünya tibb elmi və təhsili sahəsində xidmətlərinə görə Almaniyanın Avropa Təbiət Elmləri Akademiyasının "Wilhelm Conrad Röntgen medalı"na layiq görülüb. Ölkəmizin ictimai-siyasi həyatında və elmi-pedaqoji sahədə uzunmüddətli səmərəli fəaliyyətinə görə AMEA-nın müxbir üzvü, Urologiya kafedrasının professoru Sudeif İmamverdiyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Bundan başqa, I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov Türkiyənin İnönü Universitetinin "Fəxri doktoru" seçilib.

Beynəlxalq əlaqələrin də günün tələbləri səviyyəsində qurulduğunu deyən R.Bəylərov bildirib ki, son illər aparılan islahatlar, ATU-nun dünya miqyasında nüfuzlu təhsil və elm platformalarında daha da tanınması istiqamətində növbəti uğurlu addım atılıb: "Hazırda universitetimiz dünyanın 100-ə yaxın elm və təhsil müəssisəsi ilə səmərəli əməkdaşlıq edir. Tibb elmimizin müasir dünya tibb elminə inteqrasiyasında universitetin alimlərinin inkişaf etmiş ölkələrin aparıcı elmi mərkəzlərinə dəvət olunması, habelə beynəlxalq konfrans və simpoziumlarda iştirak etməsi də mühüm əhəmiyyət kəsb edir.

Tibb pedaqoqlarının əsas işi bir tərəfdən köməkçi təhsili həyata keçirməkdirsə, digər tərəfdən intensiv tədqiqat və xəstə baxımı fəaliyyətləri ilə məşğul olmaqdır. Bu mürəkkəb vəziyyətdə akademik və peşəkar bacarıqları artırmaq üçün "Pedaqoji peşəkarlığın inkişafı" təlim proqramlarından yararlanmaq lazımdır. Qeyd olanların vacibliyi nəzərə alınaraq həyata keçirilmiş yeniliklərdən biri də ötən ilin sentyabrında Tibb və sağlamlıq elmləri təhsili kafedrasının fəaliyyətə başlaması olub".

Mütəxəssislərin hazırlanmasında Tələbə Elmi Cəmiyyətinin rolunu qeyd edən R.Bəylərov hesabat dövründə II Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbələri Ağayarlı Fəridə və Həsənzadə Səbinənin Niderlandın University Medical center of Groningen universitetində keçirilən "İnternational Students Conqress of medical sciences" beynəlxalq konqresinə məruzə etmək üçün seçildiklərini diqqətə çatdırıb. Ağayarlı Fəridə münsiflər tərəfindən yüksək qiymətləndirilərək 2 həftəlik tədqiqat keçmək üçün layihə qazanıb və hər iki tələbəmiz konqresin Azərbaycan üzrə səfirləri seçiliblər. Bundan başqa, Özbəkistanda Səmərqənd Tibb Universitetinin təşkilatçılığı ilə keçirilən beynəlxalq olimpiadada 4 tələbəmiz - Məmmədli Gülgün (1), Yaqubova Süsən və Mahalova Emel (2), Mahalova Tamara (3) yüksək yerlərə layiq görülüblər.

Elmi kadrların hazırlanması işindən də bəhs edən prorektor bildirib ki, 2023-cü ildə doktoranturaya tibb üzrə fəlsəfə doktorluğuna 21 nəfər qəbul olunub, tibb üzrə elmlər doktorluğuna isə yer ayrılmayıb. Dissertanturaya isə ümumi qəbulda fəlsəfə doktorluğuna 3 nəfər qəbul edilib, tibb üzrə elmlər doktorluğuna isə yer ayrılmayıb. O, əlavə edib ki, 2023-cü ildə universitetdə 120 doktorantdan tibb üzrə fəlsəfə doktorluğunda 94, tibb üzrə elmlər doktorluğunda isə 26 nəfər təhsil alıb. Dissertantura üzrə isə 48 nəfərdən tibb üzrə fəlsəfə doktorluğunda 16, tibb üzrə elmlər doktorluğunda isə 32 nəfər təhsil alıb.

Çıxışında Əsaslı kitabxananın da fəaliyyətinə yer ayıran R.Bəylərov 2023-cü ildə fondlarda 628 078 kitab olduğunu bildirib və onların elmi (314 911), dərslik (298 371), mübadilə (14 796) fondlarında cəmləndiyini söyləyib. O, kitabxanaya rəhbərlik tərəfindən alınan, həmçinin rektorluqdan, kafedralardan, professor və müəllim heyəti tərəfindən, eləcə də ayrı-ayrı təşkilat və müəssisələrdən hədiyyə və mübadilə yolu ilə əldə olunan 280 nüsxə kitabın daxil edildiyini bildirib.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri İbadulla Ağayev, Vəfa Pənahian, İbrahim İsayev və başqaları hesabatı qənaətbəxş qiymətləndirib və universitetin elmi istiqamətdəki uğurları ilə yanaşı, bir sıra problemləri də qeyd ediblər. Natiqlər çıxışlarında dissertasiya şuralarının fəaliyyətindən, doktorantura və dissertasiya işlərinin mövcud qaydalarından, eləcə də rəhbərlik etdikləri kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyətindən söhbət açıb, təklif və rəylərini diqqətə çatdırıblar.




Müzakirələri yekunlaşdıran ATU-nun rektoru elmi işlərə münasibətin dəyişdiyini qeyd edərək, dissertasiyaların formal qaydada keçirilməsi səbəbindən bir çox işlərin geri qaytarıldığını vurğulayıb. Tamamlanmamış dissertasiyalardan da danışan professor G.Gəraybəyli əlavə edib ki, kafedraların bir çoxunda elmi işlərin təsdiqindən sonra bəzən imtina halları da olur. O, iclasda səslənən bir sıra çatışmazlıqların araşdırılmasını tapşırıb.




Sonra ATU-nun Elmi Tədqiqat Mərkəzinin (ETM) direktoru, dosent Orxan İsayev mərkəzin hazırkı elmi fəaliyyəti və kadr potensialı, eləcə də nəzərdə tutulan struktur islahatları barədə məlumat verib. Bu məsələyə münasibətini bildirən Elmi Şura, səsverməyə çıxarılan "Elmi-tibbi tədqiqatların əlaqələndirilməsi şöbəsi" və "Elmi-tibbi məlumat, patent, innovasiya və qrantlar qrupu"nun ləğv edilməsi, onların bazasında "Elmi-tədqiqatların idarə olunması departamenti"nin yaradılmasını təsdiqləyib. Şura üzvləri universitetdə çalışan alimlərin fəaliyyətini stimullaşdırmaq məqsədilə onlar tərəfindən Q indeksli nüfuzlu beynəlxalq jurnallarda çap olunan məqalələrə görə təklif olunan mükafat təşəbbüsünü də dəstəkləyib.




Bundan başqa, beynəlxalq reytinqlər üzrə işçi qrupunun yaradılmasına, həmçinin ATU-nun Təcili tibb kafedrasının assistentlərinə mühazirələrin oxunması üçün müvəqqəti icazə verilməsinə də Şura tərəfindən münasibət bildirilib.




Xarici dillər kafedrasının professoru Tamilla Xəlilovanı yenidən bu kafedraya məsləhətçi professor seçən Böyük Elmi Şura dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrini təsdiqləyib və müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

**Fevralın 12-də Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə dekan seçkisi keçirilib. Yığıncağı giriş sözü ilə açan ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev diqqətə çatdırıb ki, bu fakültənin universitetin həyatında böyük rolu var:**

# Stomatologiya fakültəsinə dekan seçilib



"Bildiyiniz kimi, son illər dekanlar böyük imtiyazlara malikdir və bu vəzifə universitetdə ən aparıcı işlərdən sayılır. Çünki onlar təlim, tədris və tərbiyənin düzgün qurulmasına cavabdehdirlər. Həmçinin tələbənin hazırlanması işində birbaşa iştirak edirlər. Bu vəzifəni daşımaq nə qədər çətin və şərəflidirsə, bir o qədər də məsuliyyətlidir. İnanıram ki, namizədliyi qeydə alınan Elmira xanım da üzərinə düşən işlərin öhdəsindən bacarıqla gələcək".

Çıxışında tələbə-müəllim münasibətlərinə də toxunan prorektor tədrisin aparılması zamanı baş verən bəzi neqativ halları da nəzərə çatdırıb: "Aramızda elə müəllimlər var ki, tələbələrlə düzgün ünsiyyət qura bilmədikləri üçün ümumilikdə tədrisin keyfiyyətinə zərər dəyir. Belə müəllimlər haqda tələbələr mənfi rəy yaradır. Xüsusilə xarici tələbələr onlardan dəfələrlə rəhbərliyə şikayət ediblər. Mütləq belə hallar aradan qaldırılmalıdır". Xoşagəlməz hadisələrin universitetin imicinə xələl gətirdiyini söyləyən S.Əliyev əlavə edib ki, belələrinə qarşı ciddi tədbirlər görüləcək.

Dosent Elmira Əliyevanın tərcümeyi-halı və pedaqoji fəaliyyəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verən ATU-nun Elmi katibi, professor Nazim Pənahov bildirib ki, o, ötən tədris ilindən bu vəzifəni müvəqqəti icra etməyə başlayıb. Bu günlərdə isə "Təbib" qəzetində Stomatologiya fakültəsinə dekan seçkisi üçün elan dərc edilib. Həmin elana əsasən, Stomatologiya fakültəsinin tərkibində olan kafedraların əməkdaşları və "Təbib" Tədris İdman Klubunun kollektivi tərəfindən ümumi yığıncaqlar təşkil olunaraq, dosent Elmira Əliyevanın bu vəzifəyə namizədliyi irəli sürülüb.

Toplantıda çıxış edənlər E.Əliyevanın peşəkar fəaliyyətindən bəhs edərək, onun daha əvvəl dekan müavini, eləcə də çalışdığı kafedranın fəal əməkdaşı kimi bir sıra vəzifələrin öhdəsindən uğurla gəldiyini söyləyiblər.

Bundan sonra namizəd öz platformasını diqqətə çatdırıb və professor Rəna Əliyevanın sədrliyi ilə formalaşdırılan Seçki Komissiyası gizli səsvermə keçirib. Nəticələrə əsasən, bütün iştirakçıların lehinə səsverməsi ilə ATU-nun Ortopedik stomatologiya kafedrasının dosenti Elmira Əliyeva Stomatologiya fakültəsinin dekanı seçilib.

**Bu günlərdə Elmi-Tədqiqat Pediatriya İnstitutu ilə ATU-nun I Uşaq xəstəlikləri kafedrasının rezidentlər üçün birgə seminarı keçirilib. Bu barədə "Təbib" qəzetinə I Uşaq xəstəlikləri kafedrası üzrə rezidentlərin rəhbəri, t.ü.f.d. Nüşabə Mollayeva məlumat verib.**

# ATU və Pediatriya İnstitutunun birgə seminarı baş tutub



Onun sözlərinə görə, nadir rast gəlinən xəstəliklərə, eyni zamanda epidemioloji vəziyyətlə əlaqədar qızılca infeksiyasına həsr olunmuş məruzələrin təqdimatından öncə çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Rauf Bəylərov rezidentlərin öz nəzəri biliklərini təkmilləşdirməsi və praktik bacarıqlarını yüksəltməsi baxımından bu cür seminarların mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, müzakirəyə çıxarılan mövzuların aktuallığını nəzərə alaraq rezidentləri diskussiyalarda fəal olmağa çağırıb. Bildirib ki, bu tip seminarların keçirilməsində əsas məqsədlərdən biri də rezidentlərin öz tədqiqatlarının nəticələrini, ayrı-ayrı xəstəliklərlə bağlı fikirlərini auditoriyaya çatdırmasına, həmçinin qarşılıqlı fikir mübadiləsinin aparılmasına imkan yaratmaqdır. Professor Rauf Bəylərov rezidentlərin klinikalarda növbətçiliyə qalmasının, konkret xəstələr üzərində klinik təhlillər aparmasının vacibliyinə də toxunaraq, təqdimatlarda bu amillərin nəzərə alınacağına əminliyini diqqətə çatdırıb.

Bundan sonra rezidentlərdən Şəhanə Qasımova "Qlikogenezlər. Qoşe xəstəliyi", Humay Zeynalova "Yenidoğulanlarda VACTERL assosiasiyalı anadangəlmə inkişaf qüsurları", Gülnar Əlizadə "Yenidoğulmuşlarda ən çox rast gəlinən xromosom anomaliyaları", Ləman Əzizova "Crischelli sindromu", Aysel Rəhimova və Nigar Bayramova isə "Uşaqlarda qızılca infeksiyası" mövzusunda təqdimatlarla çıxış ediblər.

Adıçəkilən mövzulara dair fikirlərini seminar iştirakçıları ilə bölüşən I Uşaq xəstəlikləri kafedrasının professoru Səbinə Qarayeva, kafedranın dosenti Səbirə Hüseynova və Elmi-Tədqiqat Pediatriya İnstitutunun dosenti Nailə Rəhimova məruzəçilərə öz tövsiyələrini veriblər.

Seminarda Rezidentura və magistratura şöbəsinin müdir müavini, dosent Ləman Əlizadə, ATU-nun və Pediatriya İnstitutunun rezidentləri və pediatrlar iştirak ediblər.

# Gənclər Günü münasibəti ilə tədbir keçirilib



**Fevralın 2-də Azərbaycan Tibb Universitetində Gənclər Günü münasibəti ilə tədbir keçirilib. Tədbiri universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov açıb.**

Prorektor bildirib ki, müstəqil Azərbaycanda gənclər siyasətinin, o cümlədən bu bayram gününün əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub: "1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin Birinci Forumunda Ümummilli Lider gənclər qarşısında mühüm tarixi vəzifələr müəyyənləşdirdi. Bir il sonra isə bir qrup gənci qəbul edən Heydər Əliyev fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi barədə sərəncam imzaladı. O vaxtdan etibarən MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda bu gün təntənəli şəkildə qeyd edilir".

Dosent Z.Musabəyov Ulu Öndərin həmin dövrdə ağır siyasi və iqtisadi durumda olan Azərbaycan gənclərinin imkanlarını milli maraqlarımızın qorunmasına səfərbər etdiyini, onların vətənpərvər ruhda formalaşmasına zəmin yaratdığını bildirib. O, Ümummilli Liderin gənclərə etdiyi xitabı tədbir iştirakçılarının diqqətinə çatdırıb: "Ulu Öndər Heydər Əliyev demişdi ki, "siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanları, quranları, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcək, sizə tapşıracağıq". Bu sözlər ilə Heydər Əliyev gəncliyə sonsuz etimadını, diqqətini nümayiş etdirirdi.

Sonrakı illərdə gənclərin mənəvi inkişafı, vətənpərvərlik yönündə tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, istedadlıların müəyyənləşdirilməsi, beynəlxalq platformaya çıxış imkanları və əlaqələrin genişləndirilməsi istiqamətində sistemli şəkildə böyük işlər görüldü, layihələr icra olundu. Gənclər təşkilatlarının formalaşması və inkişafına şərait yaradıldı. Hazırda ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsidir ki, ictimai, siyasi və sosial həyatın bütün sferalarında onlar çoxluq təşkil edirlər. Eləcə də ölkəmizi beynəlxalq aləmdə uğurla təmsil edirlər.

Əminliklə deyə bilərik ki, əldə olunan nailiyyətlər respublikamızda aparılan uğurlu gənclər siyasətinin tərkib hissəsidir. Biz xüsusilə Vətən müharibəsində həlledici rol oynayan gənclərimizlə fəxr edirik".

Çıxışının sonunda prorektor qarşıdan gələn prezident seçkilərinə toxunaraq, ölkəmizin həyatında mühüm hadisə olan bu prosesdə də gənclərin aktiv rol oynayacağına, onların Azərbaycanın işıqlı gələcəyinə səs verəcəklərinə əmin olduğunu bildirib.

Dövlətimizin gənclər üçün yaratdığı hərtərəfli şəraiti və ATU tələbələrinin aktiv həyatını əks etdirən video-rolikin nümayişindən sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Qoşqar İsmayılov çıxış edib. O, rəhbərlik etdiyi komitənin tələbələrin hüquqlarının qorunması ilə məşğul olduğunu bildirib: "Komandamızın heyəti genişdir. Belə ki, fakültələr üzrə sədrlər, onların müavinləri və büro üzvləri aktiv fəaliyyət göstərir. Fakültə sədrlərinin səyi nəticəsində ilk növbədə universitetimizdə təhsil alan aztəminatlı, valideynlərini itirmiş, şəhid və qazi ailələrinin üzvü olan tələbələr müəyyənləşdirilir, onlara maddi və mənəvi dəstək göstərilir".

Q.İsmayılov tələbələrin asudə vaxtlarını maraqlı keçirə bilmələri üçün klub və dərnəklərin təşkil olunduğunu da qeyd edib: "Onlardan biri "Hilal" yardım dərnəyidir. İl ərzində kimsəsiz və xəstə uşaqları ziyarət edir, onlara imkan daxilində yardımlar göstəririk. Talassemiya Mərkəzində müalicə alan xəstə uşaqlar üçün keçirdiyimiz Yeni il şənliyi və etdiyimiz yardımları buna misal çəkə bilərəm.

Tələbələrə sağlam və düzgün yaşamağı aşılamaq məqsədilə müxtəlif maarifləndirici tədbirlər təşkil olunur. Hər il keçirdiyimiz narkomaniyaya qarşı mübarizə tədbirləri də bu qəbildəndir.

2023-cü ildə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş möhtəşəm "flashmob" təşkil etdik. Daha sonra Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti və rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində qazandığımız Zəfər Gününün ildönümündə rəsm klubumuzla birgə "Rəsm festivalı" keçirdik".

THİK sədri "Şahmat Klubu", "İntellektual Oyunlar Komandası", "Teatr Klubu"nun fəaliyyəti və qazandığı nailiyyətlərdən də söhbət açıb. Onu da nəzərə çatdırıb ki, bu il yanvarın 20-də "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində keçirilən "Qanım Bayrağımdadır" adlı tədbirdə tələbələrimiz də iştirak edib və onların nümayiş etdirdiyi səhnələr iştirakçılar tərəfindən yüksək qiymətləndirilib.

Tədbirdə çıxış edən ATU Tələbə Gənclər Təşkilatının (TGT) sədri Məhəmməd Məmmədov təşkilatın fəaliyyətinin əsas istiqamətlərindən söhbət açıb. O, TGT-nin universitet rəhbərliyi ilə tələbələr arasında bir növ körpü rolu oynadığını, eləcə də tələbələrin asudə vaxtlarını səmərəli keçirməsinə, onların müəyyən bacarıqlarının üzə çıxarılmasına şərait yaratdığını qeyd edib: "Bu istiqamətlərdə bir çox tədbirlər həyata keçirmişik. Ötən il aprelində Ümumdünya Səhiyyə Təşkilatının 70 illiyinə həsr olunmuş tədbirlərdə 250-dən çox tələbəmiz fəallıq göstərdi. Vətən müharibəsinin başlanması - 27 sentyabr və Zəfər Günü münasibətilə çoxsaylı tədbirlər təşkil edirik. Onlardan rəsm, şeir müsabiqələri və s. göstərə bilərəm".

M.Məmmədov ötən ilin oktyabrında ölkəmizdə keçirilən Türk Dövlətləri Təşkilatının Forumunda 17 tələbəmizin iştirak edərək sertifikatlarla təltif olunduğunu da nəzərə çatdırıb.

**Qabil ZİMİSTANOĞLU**

# Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası yaradılıb

## Dosent Nigar Mehdiyeva: Əsas istiqamətlərdən biri skrininq proqramının hüquqi əsaslarını işləyib hazırlamaqdır

**Fevralın 9-da Azərbaycan Tibb Universitetində Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının I konfransı keçirilib. Dövlət Himnimiz səsləndirildikdən sonra ATU-nun Tədris Onkoloji Klinikasının baş həkimi, dosent Nigar Mehdiyeva açılış nitqi ilə çıxış edib.**

O, assosiasiyanın I konfransının çox əlamətdar tarixi hadisə - növbədənkənar prezident seçkiləri ərəfəsinə təsadüf etməsindən məmnunluğunu dilə gətirib. Böyük səs çoxluğu ilə yenidən ölkə başçısı seçilən cənab İlham Əliyevi tədbir iştirakçıları adından təbrik edərək, bu tarixi qələbəni 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı ilə tamamlanan zəfərlər silsiləsinin məntiqi nəticəsi kimi səciyyələndirib.

Çıxışında assosiasiyanın məqsədi, iş prinsipləri, eləcə də tibb sahəsinin həm elmi, həm də praktiki tərəfində onun rolundan söhbət açan N.Mehdiyeva qeyd edib ki, son dövrlərdə bu prosesin güclənməsi müşahidə olunur: “Dünya statistikasına nəzər salsaq görərik ki, hər bir tibbi mütəxəssis əmək fəaliyyəti dövründə ən azı bir assosiasiyanın üzvü olur ki, müəyyən üstünlüklər qazansın. Kütləvi və istiqamətləndirilmiş, həmçinin fərdi tədqiqatlarda fəal iştirak edə bilməyimiz, o cümlədən müvafiq qanunvericilik normalarının formalaşdırılması üçün assosiasiyalar bizə imkanlar yaradır. Bütün bunlar isə komanda işi olmadan mümkün deyil. Assosiasiyanın gücü onun nümayəndələrinin, üzvlərinin sayından qaynaqlanır. Ona görə də hər birimizin fərdi səsimiz böyük bir vahid səsin tərkib hissəsidir”.

Bu assosiasiyanın yaranmasına zəmin yaradan əsas səbəblərdən də danışan həkim-onkoloq bildirib ki, süd vəzi xəstəlikləri, o cümlədən süd vəzi xərçənginin erkən simptomları ilə bağlı vaxtında müvafiq mütəxəssisə müraciət etmək olduqca vacibdir: “Gündəlik praktikamızda gecikmiş müraciət problemi ilə tez-tez rastlaşırıq. Erkən müraciətin vacibliyi haqqında geniş kütləvi məlumatlandırıcı tədbirlərin aparılması çox önəmlidir. Profilaktika dedikdə, ilkin olaraq skrininq haqqında düşünürük. ATU-nun Tədris Onkoloji Klinikası və Milli Onkologiya Mərkəzinin əməkdaşları regionlarda belə skrininqlər aparsalar da, etiraf etməliyik ki, bu proses pərakəndə xarakter daşıyır. Bu baxımdan əsas istiqamətlərdən biri bu skrininq proqramının hüquqi əsaslarının işlənib hazırlanması və təkliflərin müvafiq qanunverici orqanlara çatdırılmasıdır”.



N.Mehdiyeva çıxışında onu da vurğulayıb ki, gələcəkdə peşəkar kadrların yetişdirilməsi, yerli və ölkə xaricindəki müvafiq qurumlarla əlaqələrin genişləndirilməsi assosiasiyanın qarşısında duran prioritet məsələlərdəndir.

Bundan sonra ATU-nun Onkoloji Klinikasının dosenti Həqiqət Vəliyeva assosiasiyanın idarə heyətinin və şöbə rəhbərlərinin seçilməsi, şöbələrin gələcək fəaliyyətinin planlaşdırılması proseduru barədə tədbir iştirakçılarına geniş məlumat verib. Onkoloji Klinikanın dosenti Nəsimi Qasımov və Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri, Beynəlxalq Plastik Cərrahiyyə Assosiasiyasının idarə heyətinin həqiqi üzvü, plastik və rekonstruktiv cərrah, professor Vaqif Qələndər də tədbirdə çıxış edərək öz təkliflərini səsləndiriblər, assosiasiyanın işinə uğurlar arzulayıblar.

Daha sonra Onkoloji Klinikanın dosenti Tamara Quliyevanın “Süd vəzi xəstəliklərinin profilaktika, diaqnostika, müalicə və müşahidəsində cərrahların multidissiplinar komandanın digər üzvlərindən gözləntiləri” və Milli Onkologiya Mərkəzinin həkim-onkoloqu Elxan Kazımovun “Multidissiplinar komandanın süd vəzi xəstəliklərinin profilaktika, diaqnostika, müalicə və müşahidəsində cərrahlardan tələbləri” mövzusunda məruzələri dinlənilib.

“Biz birlikdə güclüyük!” devizi altında keçirilən Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının ilk konfransında mütəxəssislər xəstələrin klinik təhlilini də apardıblar. Konfrans öz işini məruzələr və xəstə təqdimatları ətrafında müzakirələrlə yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Uroloqlar Bakıda toplaşıb

## Beynəlxalq simpoziumda 200-dək mütəxəssis fikir mübadiləsi aparıb

**Azərbaycan Uroloqlar Assosiasiyası və Azərbaycan Andrologiya və Reproduktiv Təbabət Assosiasiyasının birgə təşkilatçılığı ilə Azərbaycan Uroloqlarının XXI Simpoziumu və II Beynəlxalq Bakı Androloji Zirvəsi keçirilib.**




Dövlət Himnimizin səsləndirilməsi ilə başlayan simpoziumu giriş nitqi ilə açan AMEA-nın müxbir üzvü, ATU-nun Urologiya kafedrasının məsləhətçi professoru Sudeyf İmamverdiyev bildirib ki, Azərbaycan Uroloqlarının XXI Simpoziumu və II Beynəlxalq Bakı Androloji Zirvəsi kimi möhtəşəm tədbirlərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi çərçivəsində baş tutması onu daha da əlamətdar edir. O qeyd edib ki, müasir dünyada tibbi texnologiyaların sürətlə inkişafı baxımından bu tədbirlərin keçirilməsi günün tələblərinə uyğun olmaqla yanaşı, həm də Azərbaycanda və qardaş Türkiyədə urologiyanın inkişafına böyük təkan verəcək.

Simpoziumun plenar iclasında çıxış edən Türk Uroloji Assosiasiyasının fəxri sədri, professor Ateş Kadıoğlu Azərbaycanın ikinci dəfə müstəqillik qazandıqdan sonra bütün sahələrdə olduğu kimi, tibbin urologiya sahəsində də ikitərəfli əlaqələrin genişləndiyini, eləcə də ortaq layihələrin həyata keçirildiyini xatırladıb. Çıxışında urologiyanın aktual problemlərinə toxunan türkiyəli professor bugünkü toplantının əhəmiyyətini xüsusi qeyd edib. O, simpoziuma tanınmış alimlərdən ibarət nümayəndə heyəti ilə gəldiklərini və öz təcrübələrini bölüşəcəklərini diqqətə çatdırıb. A.Kadıoğlu gələcəkdə Azərbaycan və Türkiyə uroloqlarının vahid birliyini yaratmaq arzusunu da dilə gətirib və toplantının işinə uğurlar diləyib.

Bundan sonra ATU-nun Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev və digər tanınmış alimlərin moderatorluğu ilə simpozium öz işinə davam edib. Ateş Kadıoğlu “Penis protez əməliyyatının nadir fəsadları” (Türkiyə), Nikolaos Sofikitis “Uğursuz mikro TESE; Növbəti addımlar?” (Yunanıstan), Anar Pənahov “Səthi sidik kisəsi xərçənginin müalicəsi” (Rusiya), Elnur Mirzəyev “Xaya xərçənginin müalicəsində retroperitonal linfa adenomektomiyanın yeri”, Ali Ersin Zümrütbaş “Travma bağlı uretra darlıqlarında müasir yanaşma” (Türkiyə), Münasib Məmmədov “Xaya anatomiyası və fiziologiyası”, Buğra Çetin “Urologiyada kök hüceyrə tətbiqi” (Türkiyə), Anar Almazxanlı “Laparoskopik nefrektomiyada dünən, bu gün, sabah” mövzularında və digər 30-a yaxın məruzəçi urologiya və andrologiyanın aktual problemlərinə dair məruzələrlə çıxış ediblər.

Simpoziumun yekununda mütəxəssislərin geniş tərkibdə müzakirələri baş tutub. Bildirilib ki, bu sahə üzrə aparılan müasir müalicə üsullarının tətbiqi, urologiya və andrologiya sahəsində ən yeni avadanlıqların istifadə edilməsi, eləcə də əldə edilən müsbət nəticələrin mübadiləsi hər kəs üçün faydalı olacaq.

Toplantıda məlumat verilib ki, urologiya üzrə dünyada tanınmış alim, Türkiyə Uroloji Dərnəyinin fəxri sədri, professor Ateş Kadıoğlu simpoziumdan bir gün əvvəl ATU-nun Urologiya kafedrasının qonağı olub və onun rəhbərliyi ilə eyni zamanda üç mürəkkəb əməliyyat uğurla icra edilib.

Məlumat üçün bildirək ki, bir plenar və dörd panel iclasdan ibarət olan simpoziuma ATU-nun Urologiya kafedrasının məsləhətçi professoru Sudeyf İmamverdiyev və bu kafedranın professoru İlham Əhmədov sədrlik ediblər.

Simpoziumda Türkiyə, İngiltərə, İtaliya, Yunanıstan və Rusiyadan, eləcə də bu sahədə çalışan 200-dək yerli mütəxəssis iştirak edib.

Sonda ölkəmizin bu sahədə çalışan mütəxəssislərinin iştirakı ilə Azərbaycan Andrologiya və Reproduktiv Təbabət Assosiasiyasının yeni sədri və İdarə Heyəti seçilib. ATU-nun professoru İlham Əhmədov iki illik müddətə qurumun sədri seçilib.

**Farmakologiya kafedrasında rəqəmsal resept (elektron resept) sisteminin tətbiqi ilə bağlı elmi-praktik seminar keçirilib. Kafedranın müdiri, professor Musa Qəniyev bu proqramın ölkəmizdə tibbi məlumatların əlçatanlığını, tibb mütəxəssislərinin vətəndaşlara daha sürətli və effektiv xidmət göstərməsini təmin edəcəyini bildirib.**

# Elektron reseptin tətbiqi ilə bağlı seminar keçirilib



Rəqəmsal resept layihəsinin dövlət başçısının 15 avqust 2023-cü il tarixli fərmanı ilə bu ilin əvvəlindən qüvvəyə mindiyini xatırladan M.Qəniyev qeyd edib ki, yeni növ reseptlər əvvəllər təyin edilmiş dərmanların dozalanma nisbəti və tarixini görməyə, eləcə də xəstəliklərə dərman təyininin beynəlxalq protokollara əsaslandığını müəyyən etməyə imkan verəcək. Bu həm də dərman satışı sahəsində tranzaksiyaya (pul vəsaitləri ilə həyata keçirilən əməliyyatlara) nəzarəti və bu prosesin şəffaflığını təmin edəcək. Elektron resept sisteminin tətbiqi və təlimat qaydalarının tədris proqramına daxil edilməsi zəruridir.

Elmi-praktik seminarda Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin Keyfiyyətə nəzarət şöbəsinin müdiri, elektron resept sisteminin AEM tərəfindən koordinatoru Səid Fərzullayev çıxış edərək, yeni sistem haqqında geniş məlumat verib. Qeyd edib ki, tibb müəssisələrində vətəndaşlara verilən reseptlərin elektron qeydiyyatının aparılmasında başlıca məqsəd vətəndaşların keyfiyyətli, təhlükəsiz və etibarlı səhiyyə xidmətlərinə əlçatanlığını təmin etməkdir. Bu sistem vətəndaşlara dərman vasitələrinin yazılması və əldə olunması prosesində tam şəffaflığı və əlçatanlığı təmin edir. Pasiyent müayinə olunduqdan sonra, ona yazılacaq hər bir dərman preparatı elektron sistemdə vahid olaraq yerləşdirildikdə, ümumi sistemdən görünəcək. Yeni sistem həm də kağız dövriyyəsini azaltmağa, həkimlərin xəstələrə daha sürətli xidmət göstərməsinə şərait yaradacaq. Elektron reseptin tətbiqi ilə bütün əczaçılıq və tibb müəssisələrinin inteqrasiyası da təmin ediləcək.

Sonda S.Fərzullayev tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

# “Bilmədiklərimizi öyrəndik, bildiklərimizi paylaşdıq”

## ATU-nun pedaqoji heyəti üçün peşəkar təlimlər davam edir



**ATU-nun Tibb və sağlamlıq elmləri təhsili kafedrası yarandığı iki il ərzində müxtəlif təlim kursları təşkil edib. Belə ki, kafedranın fəaliyyət istiqamətlərindən biri tələbələrlə işdirsə, digəri pedaqoji heyətin fəaliyyəti ilə bağlıdır. .**

Bu müddət ərzində görülən işlərlə bağlı kafedranın müdiri, dosent Samir Cavadlı məlumat verib: “Qeyd edim ki, Böyük Elmi Şuranın 2023-cü il 25 iyun tarixli qərarına əsasən, hansısa kafedrada vakant yerləri tutmaq üçün professor-müəllim heyəti, həmçinin əməkdaş olmayan digər mütəxəssislər müsabiqədə iştirak etməzdən öncə “Pedaqoji peşəkarlığın inkişafı” proqramı üzrə təlimlərdə iştirak etməli və bununla bağlı sertifikat almalıdırlar. Bu iştiraka görə müəllimlərə on bal ayrılıb. Üç istiqamət üzrə müəyyənləşən bu təlimlər tədris, araşdırmalar və professor-müəllim heyəti üçün pedaqoji peşəkarlığın inkişaf etdirilməsindən ibarətdir. Bundan başqa, ekspert müəllimlər üçün çoxseçimli sualların hazırlanması, tətbiqi və analizi, təlimlərin keçirilməsi, tələbələrə maketlər üzərində kliniki bacarıqların tədrisi və qiymətləndirilməsi, həmçinin tibb təhsilində baş verən yenilikləri, innovasiyaları aşkar etmək və bunları həmkarlarımızla paylaşmaq üçün davamlı araşdırmalar aparırıq”.

Kafedra müdiri bildirib ki, bu təlimlər adətən 7-8 gün davam edir: “Əvvəllər təlimləri semestr ərzində həyata keçirirdik. Lakin müəllimlərə daha rahat olsun deyə, dərslər bitdikdən sonra, yəni imtahan dövründə aparırıq. Təlimlər səhər saat 9-dan 2-yə qədər davam edir. Bu müddət ərzində professor-müəllim heyətinə tibb təhsili haqqında yeniliklər, dünyada bu sahə üzrə tərtib edilən modellər barədə məlumatlar verilir, proqram hazırlanması və inkişaf etdirilməsi, dəyərləndirilməsi, həm nəzəri, həm də praktiki bacarıqlar öyrədilir. Bundan başqa, universitetdə kiçik qruplar şəklində tədris var. Burda həm laborator dərslər, həm də praktik seminar məşğələlər aparılır. Eləcə də böyük qruplarda mühazirə dərslərinin aparılma qaydalarındakı yeniliklər, bu məsələdə dünya təcrübəsi, istifadə olunan vəsaitlər diqqətə çatdırılır. Bütün bunlarla yanaşı, həm tələbələrin, həm də proqramların qiymətləndirilməsi metodları, test suallarının hazırlanması, onların analizi qaydaları müəllimlərə öyrədilir. Təlimin sonuncu günü iştirakçılardan öyrəndikləri əsasında bir dərs nümunəsi istənilir və 15 dəqiqəlik videoçəkiliş aparılır. Müzakirələrdə nümunə dərs haqda fikirlər bildirilir”.

Təlimə qatılanlar arasında narazıların olduğuna da diqqət çəkən S.Cavadlı vurğulayıb ki, onlar bəzən bu yaşda təlimə cəlb edilmələrindən gileylənir: “Müəllimlərdən bəziləri ilk gün narazılıq etsə də, sonradan fikirləri dəyişir və təlimlərin maraqlı keçdiyini bildirirlər. Qeyd edim ki, hər semestrdə 130-150 müəllim təlimdən keçir. Yanvarın 7-dən fevralın 15-dək 200-ə qədər müəllimin təlimdən keçməsi nəzərdə tutulub. Növbəti təlimimiz isə may ayında, ekspert müəllimlərimiz üçün test suallarının hazırlanması istiqamətində olacaq. Sevindirici haldır ki, artıq təlimlərimizdə könüllü iştirak etmək istəyənlər də var. Hətta 2 saylı Bakı Tibb Kollecinin 5 müəllimi hazırda bizim təlimlərin iştirakçısıdır. Bundan başqa, ötən il Yeni Klinikanın əməkdaşları üçün təlim təşkil etdik”.

S.Cavadlı ilə söhbətdən sonra “Pedaqoji peşəkarlığın inkişafı” proqramı üzrə təlimlərə qatılan müəllimlərin də fikrini öyrəndik. ATU-nun Ortopedik stomatologiya kafedrasının assistenti Həcər İsmayılova razılığını ifadə etdi: “Əvvəlcə qeyd edim ki, 20 ildən çoxdur bu kafedrada çalışıram. Bu gün kursumuz başa çatır, kiçik formatda açıq dərs hazırlayacağıq. Kursa gələndən indiyədək günümüzün biri də boşa getməyib. Təlimlər çox səmərəli oldu. Arada kursdan çıxıb ekspert kimi imtahana gedib-gəlmişəm və itirdiyim 45-50 dəqiqə üçün təəssüflənmişəm. Burada bilmədiklərimizi öyrəndik, bildiklərimizi paylaşdıq, çalışdığımız sahəyə dair yenilikləri tətbiq etməyin üsullarını mənimsədik. Çox təşəkkür edirəm ki, bizim üçün belə bir kurs təşkil edilib”.





Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi Aidə Bəndəliyeva: “Artıq altıncı gündür ki, bu proqram çərçivəsində müxtəlif mövzularda mühazirələri dinləməkdəyik. Burada təqdim olunan mövzular tədris proqramlarının düzgün tərtib olunmasını, hər bir müəllimin tədris vaxtı liderlik funksiyalarını bilməsini öyrədir. Böyük və kiçik qruplarda tədrisin necə qurulması, həmçinin bacarıq təlimi, kliniki fənni tədris edən müəllimin klinikalarda işinin təşkili, mənimsənilmə səviyyəsinin necə qiymətləndirilməsi, tədris mövzularının planlaşdırılması, eləcə də slaydların tərtibi, bacarıq imtahanlarının təşkili və qiymətləndirilməsi ilə bağlı çox maraqlı mühazirələr dinlədik. Ən çox razı qaldığım məqamlardan biri kafedrada mühazirə deyən müəllimlərin hazırlıqlı olmaları, mövzuları anlaşıqlı dildə çatdırmaları, əyani şəkildə slayd vasitəsi ilə təqdim etmələri, eləcə də suallarımızı əhatəli cavablandırmaları oldu.

Hesab edirəm ki, bu kursların biz müəllimlər üçün çox böyük praktiki əhəmiyyəti var. Bu kafedranın bütün əməkdaşlarına dərin təşəkkürümü bildirirəm”.

## Tədris Cərrahiyyə Klinikasında göz əməliyyatının yeni metodu tətbiq edilir



**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında həyata keçirilən eksimer cərrahiyyəsində yeni metodun tətbiqinə başlanılıb. Bu barədə klinikanın Oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov məlumat verib.**

Q.İsmayılovun sözlərinə görə, dünyada 30 ildən artıqdır ki, görmə qüsurlarının aradan qaldırılması üçün eksimer lazer üsulundan istifadə olunur. Bu müddət ərzində əməliyyatın aparıldığı lazer cihazlarında, həm də prosedurun tətbiqi texnikalarında yeniliklər olub. Onlardan biri də “morye” üsuludur.

“Eksimer cərrahiyyəsi zamanı buynuz qişanın üzərində kəsik aparılır. Müxtəlif metodikalar məhz kəsiyin hansı üsulla aparılmasından asılıdır. Tətbiq edilən yeni metodika zamanı hər növ korniyada kəsik aparıla bilir. Hər cür korniyalarda bu kəsiklərin icrası üçün həlqələrimiz (ring) mövcuddur. Əməliyyat zamanı buynuz qişanın şüa sındırmasından asılı olaraq, yastı kornealardan (39-40 kornea) ən dik olanlara (48-50-kornea) kimi kəsiklər aparılır, bu kəsiklərin hər birinə uyğun olaraq həlqələrdən istifadə olunur. Hazırda bizim klinikada bütün ringlərin kornea kəsiklərində aparılması mümkündür”.

Qeyd edək ki, eksimer lazer əməliyyatlarında PRK, Xp (dairəvi kəsiklə fləp qaldırılması), lasik, femto saniyə üsullarından istifadə olunurdu. “Morye” isə flepin qaldırılması üçün ən son metoddur.

Eksimer lazer əməliyyatı gözün və buynuz qişasının formasından asılı olaraq yaranan sınma qüsurlarını – miopiya, astiqmatizm və hipermetropiyanı aradan qaldırmaq məqsədi güdür. Nəticədə xəstələr eynəkdən azad olur. Bu əməliyyat buynuz qişa toxumasının qalınlığı yetərli olan 18-39 yaş arasındakı xəstələrdə aparıla bilər.

## 9 fevral - Beynəlxalq Stomatoloqlar Günüdür

**Hər il fevralın 9-da bütün dünyada stomatoloqların bayramı – Beynəlxalq Stomatoloqlar Günü qeyd edilir. Bu ənənə ildən-ilə daha geniş yayılmaqdadır.**

Bu barədə fikirlərini “Təbib” qəzeti ilə bölüşən Terapevtik stomatologiya kafedrasının müdiri, dosent Vaqif Həsənov qeyd edilmə tarixi kimi 9 fevralın təsadüfən seçilmədiyini deyib: “O gün katolik kilsəsinin şəhidi Apolloniya xatırlanır. İsaya inam gətirən İskəndəriyyə məmurunun qızı Apolloniyaya xristianlıqdan dönməsi üçün dəhşətli işgəncələr verilib, bütün dişləri kəlbətinlə çəkilib. İnamından dönməyən qadını tonqalda yandırmaqla hədələyəndə, o özü alovun içinə atılıb. Həmin hadisə 249-cu il fevralın 9-da baş verib. 300-cü ildə Apolloniya əzabkeş müqəddəs qadın olaraq tanınıb, atributları dişlər və kəlbətin seçilib, onun əlində diş çəkmək üçün kəlbətin tutmuş təsviri yayılıb”.

V.Həsənov bildirib ki, əslində stomatoloq peşəsinin tarixi daha qədimlərə gedib çıxır. Arxeoloqlar qazıntılar zamanı bu qədim sənətin nümayəndələrinin fəaliyyətlərinə dair çoxsaylı sübutlar aşkar ediblər. Bu qazıntıların ən qədimi 7-5,5 min il əvvəl dişlər üzərində ustalıqla aparılmış işlərin Pakistanın Bəlucistan bölgəsində tapılmış nümunələri hesab olunur.

Azərbaycanda orta əsrlərdən üzü bəri həm xanlıqlar, həm çar Rusiyası, həm də sovetlərin ilk illərində diş həkimliyini əsasən ya loğmanların, ya da dantistlərin etdiyini söyləyən həkim-stomatoloqun sözlərinə görə, onların fəaliyyəti heç bir qanunla nizamlanmırdı: “Təhsilləri yalnız bu işi bacaranlardan öyrənməkdən (şəyirdlik) ibarət olurdu. Baxmayaraq ki 1881-ci ildən çar Rusiyasının ərazisində diş həkimləri hazırlayan az sayda təhsil müəssisələri mövcud olub, ancaq onların fəaliyyəti milli kadr hazırlanması istiqamətində sezilməyib. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda cəmi 11 diş həkimi kabineti fəaliyyət göstərirdi. Başqa sözlə, 1 nəfəri azərbaycanlı olmaqla cəmi 58 nəfər ixtisaslı diş həkimi olub. Bu həkimlərin əksəriyyəti də Bakı şəhərində fəaliyyət göstərirdi və demək olar ki, müalicə ilə məşğul olmurdular”.



Azərbaycanda diş həkimlərinin ilk təşkilatının 1871-ci ildə Bakıda yaradıldığını xatırladan müsahibimiz, 1919-cu ildə Bakı Dövlət Universitetində açılan tibb fakültəsində tələbələrin diş xəstəliklərini öyrənməyə başladıqlarını vurğulayıb: “Bundan əlavə, 1926-cı ildə təhsilsiz öyrənib-öyrətmənin qadağası ilə bir vaxtda Azərbaycanda diş həkimləri hazırlayan Bakı Tibb Texnikumu yaradılıb. Bu Azərbaycanda ilk tibbi-stomatoloji təhsil ocağı idi. 1929-cu ilə qədər Tibb Texnikumunu 107 nəfər bitirdi və həmin məzunlar Azərbaycan ərazisində stomatoloji xidmətin təşkilində mühüm rol oynadılar.

1929-cu ildə texnikum Diş Müalicəsi İnstitutuna çevrildi. 1930-cu ildə isə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldı. Diş Müalicəsi İnstitutu Tibb İnstitutunun nəzdində Stomatologiya fakültəsi kimi 1934-cü ilə qədər fəaliyyət göstərdi.

Bakı şəhərində 1934-cü ildə diş həkimliyi məktəbi açıldı. Bu məktəb 1950-ci ilə qədər 1000 nəfərdən çox diş həkimi və diş texniki hazırladı. Bu kadrların sayəsində Azərbaycanda stomatoloji xidmət müəyyən qədər canlandı.

1954-cü ildə Tibb İnstitutunun nəzdində yenidən Stomatologiya fakültəsi təşkil edildi və bu fakültə günümüzə qədər fəaliyyət göstərməkdədir. Belə ki, ümumən 12 nəfər tibb elmləri doktoru və 110 nəfərdən çox tibb elmləri üzrə fəlsəfə doktoru (tibb elmləri namizədi) kadrların hazırlanmasında stomatologiyanın elmi potensialını təşkil edirlər. Stomatoloqların ümumi sayı isə ölkəmizdə təxminən 4000 nəfərə yaxındır.

Hal-hazırda Azərbaycan Tibb Universitetinin sayəsində ölkəmizdə stomatologiyanın inkişafı həm elmi, həm də kadr potensialı baxımından yüksək bir səviyyəyə çatıb. Tədqiqatçı-alimlərimiz və praktik stomatoloqlarımız qabaqcıl dünya təcrübələrini izləməklə stomatologiyanın ən aktual problemlərini uğurla həll etmək əzmindədirlər”.

**Son zamanlar bitkilərlə müalicə (fitoterapiya) əhali arasında populyarlıq qazanıb. Paytaxtda bitki xammalı qablaşdırılmış şəkildə apteklərdə satılsa da, əyalətlərdə onlar ayrı-ayrı şəxslər tərəfindən tədarük olunduqdan sonra lazımi istiqamətdə istifadə edilir. Bəs bu sahə üzrə ölkəmizdə ümumi vəziyyət necədir və Azərbaycan Tibb Universitetində dərman bitkiləri necə öyrənilir?**



Dosent, dərman bitki xammalının düzgün tədarükü, saxlanılması, istifadə müddətinin təyininin müalicəyə təsir edən vacib amillər olduğunu vurğulayıb: "İstehlakçılar bilməlidirlər ki, uzun müddət hər hansı dərman bitkisindən istifadə etmək düzgün deyil. Məsələn, götürək istiotlu nanə bitkisinin yarpağını. Bu dərman bitki xammalı bir çox müalicəvi təsirlərə malikdir, efir yağının tərkibində üstünlük təşkil edən mentol maddəsi sayəsində sakitləşdirici, spazmolitik, yüngül antiseptik, yerli keyləşdirici və s. təsirlər göstərir.

# ŞƏFALI BİTKİLƏR ÖLDÜRƏ DƏ BİLƏR

## Dərman bitki xammalının düzgün tədarükü, saxlanılması və istifadə müddəti müalicənin nəticəsinə birbaşa təsir göstərir

Bu barədə ətraflı məlumat almaq üçün ATU-nun Farmakoqnoziya kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru, əczaçı Nərgiz Məmmədovaya müraciət etdik. N.Məmmədova bildirdi ki, dərman bitkilərinin öyrənilməsi ilə çalışdığı kafedrada məşğul olurlar və bunun üçün tələbələrə farmakoqnoziya fənni tədris edilir: "Bu, dərman vasitələrinin təbii mənbələrini, o cümlədən dərman bitkilərini öyrənən bir elm olub, əczaçılıq sahəsində çalışan gələcək mütəxəssislərin hazırlanmasında mühüm rol oynayır. Müasir dövrdə bitkilərlə müalicəyə daha çox üstünlük verilir ki, bunun da bir neçə səbəbi var: yan təsirlərin az olması, insan orqanizmi tərəfindən yaxşı mənimsənilməsi, sintetik vasitələrə nisbətən daha ucuz olması.

Diqqətinizə çatdırım ki, yeni bitki mənşəli preparatların (fitopreparatların) çeşidinin artırılması məqsədi ilə kafedramızda xalq təbabətinin öyrənilməsinə xüsusi yer ayrılıb. Bu sahədə əməkdaşlarımız tərəfindən aparılan etnobotanik tədqiqatlar çox maraqlı və hər zaman perspektivli olan bir istiqamətdir. Azərbaycan florasının zəngin olması, maraqlı və öyrənilməmiş endemik növlərin mövcudluğu bu işin daha da aktuallığını təsdiqləyir".

Onun sözlərinə görə, ölkəmizdə 4500-dən çox ali bitki növü yayılıb ki, bunların da 1500-ə yaxınının müalicəvi təsirə malik olması məlumdur: "Qeyd edim ki, elmi təbabətdə istifadə olunan bitkilərə "ofisinal dərman bitkiləri" deyilir. Azərbaycan florasında yayılan ofisinal dərman bitkilərinin sayı isə 200-dən çoxdur. Respublikamızda dərman preparatlarının istehsalının genişləndirilməsinin zəruriliyini nəzərə alaraq, ölkə başçısı cənab İlham Əliyev Pirallahı Sənaye Parkı yaradılması ilə bağlı 2016-cı il sentyabrın 14-də sərəncam imzalayıb. Parkda yerli fitopreparatların hazırlanması istiqamətində də lazımi işlər görülür".

Müsahibimiz "fitopreparat" anlamının geniş məna daşıdığını da bildirib. Qeyd edib ki, "fitopreparat" deyəndə, təkcə dərman vasitələri deyil, Bioloji Fəallığa Malik Qida Əlavələri və tibbi vasitələr də nəzərdə tutulur.

Amma onun uzun müddət, fasiləsiz istifadəsi bəzi fəsadların yaranmasına, xüsusən də həyati əhəmiyyət kəsb edən sfinkterlərin zəifləməsinə səbəb olur, hətta enurez (sidikqaçırma) xəstəliyi yaradır.

Və yaxud qəbizlik zamanı sənə bitkisinin yarpaqlarından geniş istifadə olunur. Yəni bu bitkini dəmləyib içdikdə, birbaşa bağırsağın motorikasına təsir göstərir. Amma əgər 14 gündən çox istifadə olunarsa, bağırsaqda tənbəllik yaranır. Buna elmi dildə bağırsaq atoniyası deyilir. Bu kimi misalları kifayət qədər çəkmək olar".

N.Məmmədova dərman bitki xammalının tədarükü, qurudulması və saxlanılması ilə bağlı bəzi tövsiyələrini də diqqətimizə çatdırdı: "Əksər hallarda əyalətlərdə insanlar dərman bitki xammalını özləri toplayıb qurudurlar. Bu zaman bitkinin vegetasiya mərhələsinin (çiçəkləmə, meyvəvermə və s.) düzgün seçilməsinə, ekoloji cəhətdən təmiz ərazilərdən toplanmasına, qurudulmanın xüsusi qaydalarına riayət edilməsinə fikir vermək lazımdır. Məsələn, tərkibində vitaminlər, efir yağları olan dərman bitki xammallarını birbaşa Günəş şüaları altında qurutmaq olmaz. Çünki bu zaman farmakoloji təsiri təmin edən bioloji fəal maddələr parçalanır, istifadə etdikdə lazımi təsiri göstərmir.

Bəzi dərman bitki xammalını isə xüsusi temperatur rejimində qurudub və yalnız müəyyən bir dövr keçdikdən sonra istifadə etmək olar. Əks halda, xoşagəlməz əlavə təsirləri müşahidə oluna bilər. Məsələn, işlədici təsirə malik olan murdarça bitkisinin qabığını 110 °C temperatur şəraitində xüsusi quruducu sobalarda qurudub, yalnız 1-2 ildən sonra istifadə etmək olar. Əks halda, lazımi farmakoloji təsirə malik maddələrin yaranması baş vermir və əmələ gəlmiş aralıq maddələri isə ürəkbulanma, qusma və hətta ciddi zəhərlənməyə səbəb olur".

Mütəxəssis "qaş düzəldərkən göz çıxarmamaq" üçün dərman bitkilərinin tədarükü ilə müstəqil şəkildə məşğul olanlara müvafiq ədəbiyyat məlumatları ilə tanış olmağı tövsiyə edir.

**Q.ABDULLAYEV**

# Rezidentlər klinikalardakı müşahidələrini bölüşüblər





**ATU-nun Yoluxucu xəstəliklər kafedrasında tədris hissə müdiri, dosent Vüqar Cavadzadənin təşkilatçılığı ilə "İnfektologiyanın aktual problemləri" mövzusuna həsr olunmuş rezidentlərin növbəti seminarı keçirilib.**

Seminarı giriş sözü ilə açan kafedra müdiri, dosent Cəlal İsayev bu seminarların rezidentlərin gələcəkdə klinik mütəxəssis kimi yetişməsində çox böyük rol oynadığını bildirib. O indiyədək keçirilən seminarları yüksək qiymətləndirərək, bu tədbirlərin rezident və tələbələrin tədris-təcrübəni daha dərindən mənimsəmələri üçün önəmli olduğunu vurğulayıb. C.İsayev əlavə edib ki, kafedrada rezident və magistrantlara, eləcə də onların kurator və elmi rəhbərlərinə rahat şərait yaradılıb və daim dəstək verilir.

Bundan sonra tədbirdə çıxış edən rezidentlər fəaliyyət göstərdikləri klinikalarda tək-tək təsadüf edilən və atipik gedişə malik xəstələr üzərində apardıqları müşahidələrinin nəticələri haqqında məlumatlar veriblər. Onların çıxışları kafedra əməkdaşları və rezidentlər tərəfindən maraqla qarşılanıb və geniş müzakirələrə səbəb olub.

Seminarın gedişində kafedra müdiri C.İsayev və rezidentlərin rəhbərləri - dosentlər M.Muxtarov, E.Orucova, G.İbrahimova, S.Əhmədova, R.Bəylərova, Ş.Rəşidova, K.Cəfərova, assistentlər S.Məmmədov, M.Bağırova, X.Əhmədzadə və R.Nəzərova rezidentlərin çalışqan olduqlarını, elmə böyük maraq göstərdiklərini qeyd ediblər. Bununla yanaşı, öz irad və tövsiyələrini də çatdırıblar. Onlar belə maraqlı və səmərəli tədbirlərin davamlı olacağına ümid etdiklərini vurğulayıblar.

Tədbirdə Yoluxucu xəstəliklər kafedrasının müəllimləri və rezidentləri iştirak ediblər.

# Növbəti seminar neonatologiya mövzusunda olub




**ATU-nun Tədris Cərrahiyyə Klinikasının Neonatologiya şöbəsi Rezidentura və magistratura şöbəsi ilə birgə rezidentlər üçün növbəti seminar keçirib.**

Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov mövzunun "Yenidoğulmuşlarda görülən xəstəliklərin rentgenoloji diaqnostikası" olduğunu diqqətə çatdırıb və sözü TCK-nın Neonatal və intensiv terapiya şöbəsinin müdiri, assistent Sərxan Elbəyiyevə verib.

Çıxışında neonatal dövrdə olan xəstəliklərdən və erkən diaqnostikadan, həmçinin diferensial diaqnostikadan bəhs edən məruzəçi müxtəlif ağciyər patologiyalarında rentgenlə görüntüləmə ilə diaqnozun qoyulması zamanı diqqət edilməli məqamlar haqda ətraflı məlumat verib. Diferensial diaqnostikada fərqli kölgəliklərin düzgün tanınmasının böyük əhəmiyyət daşıdığını bildirən S.Elbəyiyev mekonium aspirasiyası sindromu, pnevmotoraks, həzm sisteminin müxtəlif hissələrinin atreziyaları, hidrops, malrotasiya, yarımçıqdoğulmuşlarda sıx və nadir görülən ağciyər patologiyaları (respirator distress sindrom, anadangəlmə surfaktant əksiklikləri), tranzitor taxipnoe, anadangəlmə pnevmoniyalar, hava qaçağı sindromları (pnevmotoraks, pnevmomediastinum, pnevmoperikardium), yarımçıqdoğulmuşlarda daha sıx görülən nekrotizəedici enterokolit, spontan intestinal perforasiya, doğuş travmaları (kaput suksadenum, sefalhematoma, subqaleal qanaxma, körpücük sümüyü sınıqları zamanı yenidoğulmuşun rentgen görüntülərində nələrə diqqət olunması haqda geniş çıxış edib.

Tədbirdə neonatologiya üzrə təhsil alan rezidentlər iştirak ediblər.

# Beyin ölümünün diaqnostikası müzakirəyə çıxarılıb

**Rezidentura və magistratura şöbəsinin Anesteziologiya və reanimatologiya kafedrası ilə birgə keçirdiyi növbəti seminarda beyin ölümünün diaqnostikası və müayinə üsullarından danışılıb.**



Kafedranın assistenti Pərisa Xoşbonyani bildirib ki, beyin ölümü konsepsiyası texnoloji inkişafın bugünkü mərhələsində bədənin kritik sistemlərinin dönməz şəkildə məhv olması anlayışına əsaslanır: "Yəni nə indi, nə də gələcəkdə süni, bioloji, kimyəvi və ya elektron texniki vasitələrlə əvəz edilə bilməyən sistemlər yoxdur. Təkcə beyin həqiqətən əvəzolunmazdır. Beyin ölümü diaqnozunun qoyulması həm beyin ölümü baş verən xəstələrin mənasız müalicəsini dayandırmağa imkan yaratmaq zərurəti, həm də transplantasiya məqsədilə orqanların çıxarılması üçün tibbi, hüquqi və mənəvi əsasların yaranması ilə müəyyən edilib.

Beyin ölümü, həmçinin "nevroloji meyarlara görə ölüm" kimi adlandırıla bilər. Başqa sözlə desək, ürək-qan damar sistemi fəaliyyət göstərdiyi zaman, beyin və beyin kötüyü funksiyalarının geridönməz itirilməsi səbəbindən tənəffüsün süni tənəffüs aparatı ilə təmin olunması hesabına meyit "yaşayır". Klinik ölümdən fərqli olaraq, beyin ölümü diaqnozu qoyulmuş şəxsin həyata qayıtması qeyri- mümkündür".

Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilovun moderatorluq etdiyi seminarın sonunda beyin ölümünü yoxlama vərəqəsi təqdim olunub və müzakirələr aparılıb.

Dünyadan bizimkilər

# “Gəldik, gördük, sevdik”

## Pakistanlı tələbələrimiz Azərbaycan Tibb Universitetindəki şərait və tədrisin keyfiyyətindən razılıqla danışırlar

**Azərbaycan Tibb Universitetinin əcnəbi tələbələri arasında dost Pakistandan gələnlər az deyil. Ölkəmiz və universitetimiz barədə təəssüratlarını öyrənmək üçün onlardan bir neçəsi ilə görüşdük. Fikirlərini öyrəndiyimiz tələbələr I Müalicə-profilaktika fakültəsində təhsil alırlar.**



Hamza Muhammad bizimlə söhbətində bildirdi ki, hələ öz ölkəsində olarkən ATU haqda tanışlarından məlumat alıb: “Tibb Universitetini tanışlarım mənə tövsiyə edəndən sonra internetdə də axtarışlara başladım. Buranı seçdim. Universitetin şəraiti, müəllimlər tərəfindən keçirilən dərslər çox xoşuma gəlir. Bizə hər gün yeni biliklər öyrədirlər. Ailədə 3 uşağıq. Onlar məndən kiçikdirlər. Vaxtı çatanda onlara da bu universiteti seçməyi təklif edəcəyəm. İnanıram ki, təklifimi dəyərləndirəcəklər”.

Bütün araşdırmalarına baxmayaraq, Azərbaycana gəlməmişdən öncə Hamza Muhammad ölkəmizi belə təsəvvür etmirmiş. Xüsusilə paytaxtımıza heyran olub: “Artıq Bakı mənim üçün doğma bir şəhərə çevrilib. Estetik baxımdan çox gözəl şəhərdir. Çox şey diqqətimi çəkir. Heydər Əliyev Mərkəzi, Alov qülləri çox gözəldir. Bu məkanlarda təşkil olunan sərgilərdə iştirak etdim, bəyəndim.

Hava soyuq olsa da, artıq Novxanı çimərliyində də olmuşam. Doğrudur, çimməsəm də, Xəzərin havasından xüsusi zövq almışam. Azərbaycanlı dostlarım da var, onlarla xoş münasibətdəyəm.

“Univerium” tələbə şəhərciyində qalıram. Orada azərbaycanlı tələbələr də yaşayır. Onlarla ünsiyyətdə oluram. Çox istiqanlıdırlar və çalışırlar ki, hansısa bir çətinliyin olanda sənə yardım etsinlər. Azərbaycanın gözəl yerlərini gəzmək istəyirəm. Quba, Qəbələ, Şahdağı görmək fikrim var. Təbiəti, gözəllikləri seyr etməyi xoşlayıram. Qış mövsümündə, imtahanlardan sonra ilk olaraq Şahdağa getmək niyyətindəyəm”.

Dania Cahangir Pakistanın Siyaqut şəhərindəndir. Qohumları Azərbaycan Tibb Universitetində təhsil alır. Daniaya ATU haqda məlumatı da onlar verib: “Tibb Universiteti haqqında daha ətraflı məlumat toplamaq üçün internet araşdırması etdim. Amma bu qədər yaxşı olacağını təxmin etmirdim. Universitetdə bizə lazım olan hər cür şərait var. Burada özümə azərbaycanlı rəfiqələr də tapmışam. Onlar yardımsevər və dostcanlıdırlar.

Təhsildən və müəllimlərimdən razıyam. Müəllimlərimin hamısını sevirəm. Günel Rüstəmova isə çox istiqanlıdır. Dərsi bizim anlayacağımız səviyyədə izah etməyə çalışır”.

Dania milli xörəklərimizdən də söhbət açdı. Şah plovu çox xoşladığını dedi: “Deyərdim ki, şah plovun əvəzi yoxdur. Çox istərdim, onun bişirilmə qaydasını öyrənim. Pakistana dönüncə hazırlayım, qohumlarım da dadına baxsın.

Yataqxanada azərbaycanlı tələbələrin çayı necə dəmə qoyduqları da diqqətimi çəkdi. Bizdən fərqli olaraq, sizdə ədviyyatlardan çox istifadə edilmir. Artıq dəmləmə qaydasını öyrənmişəm. Evimizə dönəndə mən də sizin kimi çay dəmləyəcəm.

Bakıda məşhur alış-veriş mərkəzi olan “Sədərək”də də oldum. Oradan özümə paltar aldım. Şəhərinizin mərkəzi, “İçərişəhər” çox xoşuma gəldi. Qədim tikililər diqqətimi cəlb etdi. Vaxtım olsa, Qəbələyə getməyi planlaşdırıram”.

Abdul Sani isə Lahor şəhərindəndir. Universitetimiz barədə məlumatı yaxın dostundan əldə edib. Ailəsinin Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanında da evləri var: “Oralarda oxumaq imkanım var idi. Amma dostumun tövsiyəsi ilə Bakını, Azərbaycan Tibb Universitetini seçdim. Seçimimdən peşman olmadım, çox razıyam.

Universitetin ərazisi çox genişdir, auditoriya zalları səliqəlidir. Müəllimlərimdən çox razıyam. Savadlı və yardımsevər müəllimlərimiz bizə bildiklərini həvəslə öyrətməyə çalışır”.

Bakının təmiz və səliqəli olması Abdul Saninin diqqətini çəkib: “Ən çox ruhumu dincəldən dənizkənarı bulvar oldu. Qız qalası, Şirvanşahlar sarayında olmuşam. Bakının gecələri daha gözəldir. Azərbaycanın başqa yerlərini də görmək istəyirəm. Yeni gəldiyim vaxtlar darıxırdım, indi öyrəşmişəm. Çayınızı xüsusilə sevirəm”.

**Qabil ABDULLAYEV**

# Kitab fondumuza yeni monoqrafiya daxil olub




Universitetimizin kitab fonduna I Cərrahi xəstəliklər kafedrasının professorları Saday Əliyev və Nuru Bayramov tərəfindən yazılmış yeni monoqrafiya əlavə edilib. “Nekrozlaşdırıcı fassiit” adı altında tərtib edilmiş bu kitab irinli-septik cərrahiyyənin aktual probleminə həsr olunub.

Cərrahiyyənin bu istiqamətdə müasir nailiyyətlərinə baxmayaraq, nekrozlaşdırıcı fassiit və onun xüsusi klinik forması olan Frunye qanqrenası haqqında dövri ədəbiyyatda çox az məlumat verilir. Bu informasiya boşluğu milli ədəbiyyatda da nəzərə çarpır. Bununla əlaqədar praktik həkimlər, xüsusi ilə ilk kontakt həkimləri (sahə həkimi, təcili yardım həkimi) bu patologiya barədə çox səthi məlumata malikdir. Buna görə də xəstəlik müxtəlif diaqnozlarla qeydə alınır, nəticədə bu patologiyanın həqiqi epidemioloji mənzərəsi haqqında məlumat almaq olmur. 4 fəsildən ibarət bu kitabda nekrozlaşdırıcı fassiitin və Frunye qanqrenasının epidemiologiyası, etiopatogenezi, müasir diaqnostikası və müalicəsi ətraflı şərh edilib. Kitabın elmi-praktik əhəmiyyəti ondan ibarətdir ki, nekrozlaşdırıcı fassiit və Frunye qanqrenasının ənənəvi və müasir diaqnostika üsullarını (rentgenoloji, USM, KT, MRT) əks etdirən əyani materiallarla zənginləşdirilib. Geniş və müasir ədəbiyyat məlumatlarına və çoxillik şəxsi təcrübələrinə əsaslanan müəlliflər xəstəliyin diaqnostikasında və müalicəsində multidissiplinar yanaşma prinsiplərinin prioritet rolunu qeyd ediblər. Bu da müasir klinik cərrahiyyənin strateji doktrinasına uyğundur. Yüksək elmi-metodik səviyyədə yazılan kitab özünəməxsus dizayn keyfiyyəti ilə də seçilir.

Eyni zamanda monoqrafiyanın elmi-praktik keyfiyyətin əsas göstəricilərindən biri olan ədəbiyyat siyahısı və xarici müəlliflərin qeyd olunan patologiyanın müxtəlif aspektlərini əks etdirən elmi işləri ilə zənginləşdirilməsi oxucuya bu xəstəlik haqqında daha geniş məlumat almaq imkanı yaradır.

Professorlar S.Əliyev və N.Bayramov tərəfindən yazılmış monoqrafiya praktik həkimlər, rezidentlər, Tibb Universitetinin tələbələri üçün faydalı elmi-praktik vəsaitdir.

# Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti vəfat edib

**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Quliyev Səxavət Bağır oğlu 60 yaşında vəfat edib.**



S.Quliyev 1963-cü ilin 16 oktyabrında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Kükü kəndində ziyalı ailəsində anadan olub. Şahbuz qəsəbəsi 1 nömrəli orta məktəbi bitirdikdən sonra 1980-ci ildə Azərbaycan Tibb İnstitutunun Stomatologiya fakültəsinə daxil olub və 1985-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. 1985-86-cı illərdə Bakı şəhəri 1 saylı Şəhər Kliniki Xəstəxanasında Üz-çənə cərrahiyyəsi şöbəsində internatura keçib.

O, 1987-ci ildən 1995-ci ilədək Peşə Məktəblərinin Sanatoriyasında həkim-stomatoloq işləyib. S.Quliyev 1990-96-cı illərdə 1 saylı Şəhər Kliniki Xəstəxanasında növbətçi həkim vəzifəsində çalışıb. 1996-cı ildə Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasına assistent vəzifəsinə seçilib. S.Quliyev fəaliyyəti dövründə bir çox məqalə, tezislərin müəllifi olub, müxtəlif beynəlxalq konfranslarda və konqreslərdə iştirak edib.

Kafedrada assistent işlədiyi dövrdə özünü bacarıqlı həkim, zəhmətkeş, aktiv pedaqoq kimi göstərən S.Quliyev Stomatologiya fakültəsinin tələbələrinə təcrübə məşğələləri aparmaqla yanaşı, həm də kafedra və universitetin ictimai-siyasi həyatında daim fəallıq göstərib, keçirilən mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edib.

Uzun müddət kafedranın qrup həmkarlar təşkilatına rəhbərlik edən Səxavət müəllim əməkdaşlara səmimi münasibəti ilə həmişə seçilib.

Təvazökar və yüksək intizama malik, doğma kollektivin böyük hörmətini qazanmış Səxavət Quliyev həm də gözəl ailə başçısı idi. Aramızdan vaxtsız ayrılan Səxavət müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

*Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların müdirləri:**
- Təcili tibb kafedrası
- I Uşaq xəstəlikləri kafedrası

**Kafedraların professorları:**
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Qidalanma və tibbi ekologiya kafedrası - 1 yer (0,5 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 3 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer ( 0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer ( 0,25 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 1 yer ( 0,5 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer ( 0,5 vahid)
- Travmatologiya və ortopediya kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 3 yer (0,75 vahid)

**Kafedraların assistentləri:**
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 2 yer
- Anesteziologiya və reanimatologiya kafedrası - 2 yer
- Ümumi cərrahlıq kafedrası - 1 yer ( 0,75 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 2 yer
- Ailə təbabəti kafedrası - 1 yer
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- Nevrologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer ( 0,75 vahid)

**Kafedraların baş müəllimləri:**
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 2 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer

**Kafedranın müəllimi:**
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08**

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın artırılması” mövzusunda təlimlərdə iştirakı barədə sertifikat.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

## Allah rəhmət eləsin!

Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın assistenti Müşfiq Bağırova atası

**Qəzənfər müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın müdiri, professor Ramiz Poluxova xalası

**Pəri xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın assistenti Ramilə Babayevaya əzizi

**Xədicənin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0003
Sayı 800